BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Humanitar elmlər seriyası 2014*

# ƏDƏBİYYATŞÜNASLIQ

**UOT 82(091)**
**47.09 Ədəbiyyat tarixi**

## «HƏR SÖZÜM BİR PƏHLƏVANDIR...»
## (İ.Nəsiminin həyat və yaradıcılığı fonunda)

**MOBİL ASLANLI HUNTÜRK**
***Bakı Dövlət Universiteti***
***hunturk50@gmail.com***

*Məqalə böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin yaradıcılığında insanın iradi-fiziki təkmilləşməsi probleminin öyrənilməsinə həsr olunmuşdur.*

*Müəllif əsərdə şairin tərənnüm etdiyi obrazları nəzərdən keçirərkən, onların dərin əqidə, məslək, mətin iradə, fiziki, əqli və digər şəxsi xüsusiyyəitləri barədə lazımi bilgilər verir.*

**Açar sözlər**: fiziki mədəniyyət, fiziki tərbiyə, səyahət, oyunlar, iradi-əxlaqi keyfiyyətlər

Dahi Azərbaycan şairi İmadəddin Nəsimi xalqımızın orta əsrlərdə dünya ədəbiyyatına bəxş etdiyi ən nadir simalardan biridir. Azman şair, böyük mütəfəkkir, hürufiliyin əsasını qoymuş, "Cavidnamə", "Məhəbbətnamə", "Novnamə" kimi mənəvi sərvətlərlə ədəbiyyat tariximizi zənginləşdirən Fəzullah Nəiminin ideyalarının alovlu və ardıcıl təlbilağıtçısı olmuş Nəsimi, doğma dilində şeirin ilk nümunələrini yaradan, öz mütərəqqi fikirlərini yüksək bədii dillə ifadə etməyi bacaran qüdrətli bir sənətkar kimi tanınır. Hürufiliyin banisi məslək, amal və əqidəsinə pərəstiş etdiyi ustadı Nəiminin görüşlərini mənimsəyərək həmişə təriqətin fikirlərini təbliğ və təşviq edən şeirlər yazmağa başlamış və bu vaxtdan etibarən Nəiminin təxəllüsü ilə həmahəng səsləşən Nəsimi ləqəbini özünə seçmişdir. Hürufilik fikirlərini yaydığı üçün "kafir", "dinsiz" elan edilərək həbs olunub dəfələrlə zindanlara salınan Nəsimi, çox mürəkkəb, ağır və ziddiyyətli bir həyat yaşamışdır. Nəsimi dövründə hürufilik bir məslək, əqidə, dünyagörüşü kimi yayılmışdı. İnsana yeni münasibət, yeni insan anlayışı onun əsasında dururdu. Öz kökü ilə xalqa bağlı olan bu təriqət xalqın ruhunu, ictimai-siyasi görüşlərini, həyat münasibətini əks etdirirdi (5, 312).

Qeyd etmək lazımdır ki, insan amili, onun həyat tərzi və fəaliyyəti, hə-

min insanın bilavasitə fiziki inkişafı və sağlamlığı üzərində qərarlaşır. Fiziki hazırlıq, fiziki-cismani yetkinlik və sağlamlıq problemi üzrə düşüncələr Nəsimi diqqətindən yan keçməmişdir. Beləliklə, şair göstərirdi ki, vətənin, torpağın bütövlüyünü qorumaq, habelə istismarın, haqsızlıq və rəzalətin axırına son qoymaq üçün həmin yurdun övladları hökmən cəsur, güclü və dəyanətli olmalıdır. Onun fikrincə, əllərində hərbi silahlar tutan, vuruş meydanlarında dov gətirə biləcək şəxslərin fiziki cəhətdən kamil olmaları önəmli bir vəzifə kimi daim diqqət mərkəzində olmalıdır.

Beləliklə, bədən tərbiyəsi hərəkətləri, fiziki tərbiyə məşğələlərinə bağlılıq bu işdə önəmli yer tutur. Nəsimiyə görə, ox-yay süzdürən, qılınc toqquşduran, kaman dartan, at çapan, nizə tutan, şeşpər hərlədən, gürz fırladan və s. kimi fiziki təmrinlərlə məşğul olan xalqın övladlarının yurdu, torpağı heç zaman basılıb işğala məruz qala bilməz. Şair haqlı olaraq göstərirdi ki, "gümrah ərlərin qılıncı sayəsində ölkə qərar tutsun" hər cür rəzalət və zülmə son qoyulsun.

Şair fiziki tərbiyədən, fiziki inkişafdan, fiziki qüdrət və cismani əzəmətdən həm də yaşadığı dövrdə istibdada, soyğunçuluğa, qarətə, haqsızlığa son qoymaq vasitəsi kimi istifadə edilməsini mühüm amil hesab edir, habelə uşaq və gənclərin həyatını fiziki mümarislərə, hərbi bacarıq və vərdişlərə sıxı bağlılığı zəruri hal hesab edirdi. Nəsimi fiziki inkişafın, fiziki möhkəmliyin, mərd, igid, cəsur qəhrəmanlıqların formalaşmasına zəmin yaradan başlıca amil olduğunu oxucusuna çatdırır:

Ər bilir meydan qədrin kim, qədərlər ağrımaz! (4, 618).

-deyərək, fiziki sağlamlığı mübarizə və hünər üçün əsas keyfiyyət hesab edirdi.

Nəsimi bu sahədə də öz sələflərindən və müasirlərindən, orta əsrlərin pedaqoji fikir tarixinə, fiziki tərbiyəyə dair parlaq səhifələr yazmaqla, pedaqoji fikir tariximizi çox-çox qabağa aparmışdır.

Şairin əsərlərində bir sıra idman növləri ilə yanaşı, yüksək fiziki keyfiyyətlər tələb edən milli xalq oyunlarımız arasında qədim tarixə malik və həmin dövrdə çox yayılmış atüstü oyunlarımızdan olan çovkan oyununun adı çəkilir. Mükəmməl fiziki hazırlığa malik, çevik, dəyanətli və cəsur ərənlərin hərəki bilik, bacarıq və vərdişlərin fiziki təkmilləşməsi baxımından, Nəsiminin həmin mövzuya tez-tez müraciət etməsi fiziki mədəniyyət tariximiz üçün maraqlı hadisələrdəndir:

Başını top eyləgil, gir vəhdətin meydanına,
Ey könül, müştaq isən gər zülfünün çovkanına…
Ənbərin zülfü anın kim ki, dolaşdı boynuna
Başı top olsun anın gər özgə çovkan istəyə… (4, 19; 49).

Müsadilə təşnəsi ilə qovrulan şair demək istəyir ki, kamil insan məslək və əqidəsi yolunda meydana qorxmadan şəstlə girən şəxslərdir. Nəsimi hayqıraraq "Başımı top edib yenə meydana girmişəm" deməklə, müasirlərinə özünün qorxmazlığı, mərdanəliyi ilə örnək olduğunu anladır. Cəsarət rəmzi, dəya-

nət simvolu olan məğrur şair, ər kişilərin, sevən aşiq və fədailərin yerinin cəng-savaş meydanları olduğunu bildirirdi.

Çovkan oyununa dərin maraq fiziki-cismani cəhətdən mərd, dəyanətli, mətin və mübariz oyunçular yetişdirmək zərurətindən irəli gəlirdi. Bu oyun eyni zamanda güclü hərbi xarakter daşıyırdı. Belə ki, istilaçı qoşunların basqınlarına məruz qalmamaq, qanlı cəng savaşları və toqquşmalarda döyüş məharəti göstərməkdə çovkandan əxz olunan fiziki, hərbi bacarıq və vərdişlər zəfər üçün müstəsna əhəmiyyət kəsb edirdi.

Mənbələrin məlumatına görə, Nəsimi dövründə Azərbaycan şəraitinə uyğun mərd və mübariz döyüşçülərin xüsusi fiziki və hərbi hazırlıq məqsədi üçün cirid, qəpəq və sair kimi atüstü idman oyunları arasında fiziki təmrinlərin müxtəlif elementlərini özündə birləşdirən çovkan oyununa daha geniş yer ayrılırdı. Odur ki, şair təşbih, bənzətmə (oxşatma), təzad, mübaliğə, istiarə, kinayə, məcaz, cinas, təhlil, təkrir və s. kimi bədii ifadə vasitələrindən yüksək bədii sənətkralıqla istifadə etməklə müxtəlif tipli şeirlərində çovkan oyununa istinadən rəngarəng poeziya nümunələri yaratmışdır:

Gördü topu qəbqəbi-simin, çovkan zülfünü,
Tifli-ruhim neyləsin, ol turü-çovkan arzular …
Zülfünə başın top edibən qoydu Nəsimi,
Zülfun sözünü dünyada çovkan dəxi bilməz (4, 200; 323; 471; 517).

Şairin zehni, cismani və mənəvi sağlamlığı onun həyatda fiziki tərbiyə məşğələlərinə, bədən tərbiyəsi hərəkətlərinə ciddi meyl və istəyinə münasibətdə ifadə olunur. Bu inkaredilməz həqiqətdir ki, mənalı həyatında uzunmüddətli səyahət və gəzintilərə geniş yer ayıran sevimli şairimizin fiziki hünərini müasir dövrdə idmanın turizm və alpinizm növlərində yüksək rekord nəticələr göstərmiş hər hansı bir atletin fiziki ustalığı, pəhləvanlıq məharəti ilə müqayisə etmək olar.

Qeyd etməliyik ki, şairin fiziki tərbiyə məşğələlərinə ciddi aludəliyi, yüksək fiziki hazırlığı ona əsl turist tək gəzinti, ekskursiya şəklində çox uzaq məsafələrə səyahətləri qət etməsinə imkan vermişdir. İran, İraq, Türkiyə, Suriya, Səudiyyə Ərəbistanı, Misir, Mərakeş, İordaniya, Yaxın və Orta Şərqin çox-çox məmləkətlərini gəzib dolaşan şair, həmçinin Qafqazın da gözəl diyarlarına baş çəkmişdir.

Professor Nurəddin Kərəmov şairin irimiqyaslı səyahətlərini təhlil edərək onun bəzi şeirlərində sətiraltı mənada daha çox ölkələrdə olduğu fikrini açıqlayır “Nəsimi bəzi şeirlərində “Yeddi iqlim”in adını çəkir. O, gəzdiyi yerlərin adını göstərsə də, konkret olaraq hansı iqlimdə olduğunu qeyd etmir. Şairin olduğu ölkələri nəzərə alsaq onun ancaq üçüncü, dördüncü və beşinci iqlim zonalarının bir hissəsində yerləşən diyarları gəzdiyini göstərmək olar. Ömrünün qırx ilini Asiya, Afrika ölkələrini gəzib-öyrənməyə sərf etmiş Azərbaycanın məşhur səyyah – çoğrafiyaşünası H.Z.Şirvani üçüncü iqlim zonası haqqında yazır ki, bu iqlim Şərqdə Çin və Hind-Çindən başlayıb. Hindistanın

ortasından, Türkiyənin cənubundan, Kabil, Mərkan, Sistan, Fars, Korman, Xuzistan vilayətlərindən, həmçinin Diyarbəkirin cənubundan və İraqdan keçib Suriyaya daxil olur. Sonra Misirdən və Afrikanın şimalından keçib okeanla birləşir… Z.Şirvaniyə görə, dördüncü iqlim şərqdə Çindən, Tibet dağlarından, Kəşmir, Bədəxşan və Əfqanıstanın bəzi şəhərlərindən, Türküstandan, Turandan, Xorasandan, Kirmandan, İraqi-Əcəmdən, Darülmərəzdən (Rəşt), Azərbaycandan (İran Azərbaycanı), Ermənistandan, Türkiyədən, Aralıq dənizindən, Kipr adasından, Tripolidən, Əlcəzairin qərbindən keçərək okeanda qurtarır… Beşinci iqlim isə Qafqazı tam əhatə edir (Azərbaycan tamamilə bu iqlim daxilində qalır), qərbdə və şərqdə onunla bir paraleldə yerləşən ölkələri əhatə edir (2, 60-61).

Mətin iradə, dönməz əqidə, məslək və amal sahibi Nəsiminin mənsub olduğu hürufi təriqəti zülm, əsarət və xurafatla barışmayanların təriqəti idi. Məhz belə mənəvi qəhrəmanlığına görə, alovlu şair mənalı ömrünün sonuna kimi hürufi olaraq qaldı. Sarsılmaz hünəri ilə bütün yaxın Şərq folklorunda, ədəbiyyatında cəsarət, qorxmazlıq və fədakarlıq rəmzinə çevrilən Nəsimi həm öz təbiətinə sadiq qalaraq, həm də mənsub olduğu təriqətin tələbinə uyğun hərəkət edərək şeirlərində mərdliyi, kişiliyi təbliğ edir, mütiliyi, acizliyi, cılızlığı isə mənfur əlamətlər kimi lənətləyirdi. Böyük sənətkarımız Eynəlqüzzat Miyanəçi, Şihabəddin Sührəverdi, Şəms Təbrizi, Şah Qasim Ənvar kimi sələflərinin, habelə müəllimi Fəzullah Nəiminin əsərlərində də ən çox bu cəhətləri axtarmış, habelə onların ideya məzmunundan və poetik xüsusiyyətlərindən bəhrələnmişdi.

Bu bir həqiqətdir ki, Nəsimi də Həllac Mənsur kimi islam dininin bir sıra eybəcər prinsiplərinə çox tənqidi yanaşmış, müxtəlif dini etiqadlara inanan insanlar arasında ayrı-seçkilik salmağın qəti əleyhinə çıxmış, müsəlman olmayan xalqlara da dərin rəğbət bəsləmiş və dini qanunların – formalizminə, əsarətinə qarşı etiraz səsi ucaltmışdır. Dönməz məslək, amal mücəssəməsi, qorxmaz qəlb sahibi, yaddaşlarda qərarlaşan Nəsimi, islam dininin və feodal zülmünün hökmranlığı şəraitində öz tərəqqipərvər görüşlərini, panteist ideyalarını misilsiz bir cəsarətlə, son nəfəsinə qədər müdafiə etmiş, hətta ən böyük işgəncə, əzabdan, hətta dar ağacından asıldığı zamanda belə, öz etiqadından dönməmişdir. Akademik M.Quluzadə onun ideya davamçılarından biri olan Nəsimi məğrurluğu barədə yazırdı: "… Həllac Mənsur bütün Yaxın Şərq ədəbiyyatında əsrlər boyu mərdlik, rəşadət, qorxmazlıq və fədakarlıq timsalı kimi məşhur olmuş, şairlərin və aşıqların dərin məhəbbətini qazanmışdır. Nəsimi də gənc yaşlarından bu panteist şairi ürəkdən sevmiş, onu əfsanəvi bir qəhrəman, həqiqət aşiqi, mərd və cəsur bir insan kimi öz şeirlərində böyük ehtiramla tərənnüm etmişdir. Həllac Mənsurun panteist görüşləri, onun etiqad sərbəstliyi tərənnüm edən şeirləri Nəsiminin ruhuna, zövqünə çox uyğun gəlmişdi" (3, 8).

Söz və qılınc bahadırı Şah İsmayıl Xətai Nəsimi yenilməzliyi, Nəsimi şücaəti, onun qeyrət və məsləki qarşısında baş əyir, səcdə qılırdı. Şah İsmayıl bu inadkar, qətiyyətli böyük mütəfəkkirin şeir kahkaşanında at oynatması,

parlaq təfəkkürü, iti hafizəsi, güclü fəhm və fərasəti, hazırcavablığına heyrəti gizlədə bilmir. Mənsub olduğu millətinin Nəsimi tək türk oğlu olduğundan fəxarət duyur, qürur hissi keçirir və özünə mürşid saydığı azadlıq carçısının, sevimli ustadının qəhrəman ruhuna, sarsılmaz iradəsinə dərin sayqı və ehtiramı sezilir:

Şah Xətai didarə bax,
Mənsur ipin boynuma tax.
Nəsimi oldu haqla-haq,
O üzülən dərisidir (1, 116).

Nəsiminin adı Yaxın Şərq folklorunda, ədəbiyyat tarixində qorxmazlıq, fədakarlıq, cəsarət və sədaqət rəmzinə çevrilmişdir. Təzkirə müəllifləri şairi gözəl, zərif, şirin, olduqca dərin zəka və dərrakə sahibi olan, incə sözləri anlayan bir insan kimi tərifləmiş, şeirlərindən məhəbbətlə söz açmışdır. XIV əsr türk təzkirəçisi Lətifi isə, Nəsiminin "eşq meydanının sərbazi-bibimi (qorxusuz əsgəri) və məhəbbət Kəbəsinin fədayiyi-əzimi" (böyük fədaisi) adlandırmışdır.

Şair Şərqin görkəmli sufi mütəfəkkirlərindən Həllac Mənsura daha çox üstünlük verir, onu zəmanəsinin ən cəsur, müdrik, fədakar və vətənpərvər bir alimi adlandırır. Əqidəsi, amal və məsləki yolunda sabitliyinə görə ona dərin rəğbət və inam göstərir, "ənəlhəqq" ideyasına tərəfdar çıxır, cəhalətə, nadanlığa qarşı mübarizəsini ürəkdən alqışlayır. Həllac Mənsurun ideya mübarizəsini ürəkdən bəyənən Nəsimi o, mücadilə aşiqinin davamçılarından olduğundan nəinki şərəf və qürur duyur, həm də bununla öyünür:

Daim ənəlhəqq söylərəm, həmqən çü Mənsur olmuşam,
Kimdir məni bərdar edən, bu şəhrə məşhur olmuşam (1, 432).

Böyük şairin müqtədir araşdırıcılarından olan akademik Həmid Araslı da bahadır ürəkli, pəhləvan şücaətli, cahangir xislətli türkün bu cavanşir övladının misilsiz cürət və fitirətini paralel şəkildə götürərək onu zəka və ərdəmliliyin yenilməz cahangiri kimi təqdir edir. Tədqiqatçı-alim bütün əsrlər boyu türkün "cəsarət simvolu" olan cahanşümul oğulları arasında bənzəri olmayan Nəsimi təxəyyülünün, Nəsimi qəhrəmanlığının ilahi vergisi kontekstində real gerçəkliyini təqdim edir: "Beş əsrdən artıqdır ki… Nəsiminin şərəfli adı Yaxın Şərqdə mərdlik, fədakarlıq və iradə rəmzi kimi hörmətlə çəkilir… məsləki uğrunda dara çəkilib dərisi soyulan, son nəfəsində belə sözündən dönməyən bu mərd insanın faciəli ölümü şairlərin şeirlərində, aşıqların sazında tərənnüm edilir… Zindanda qaldığı müddətdə Nəsimi qazi və ruhaniləri, müftiləri ifşa edən kəskin şeirlər yazır, ölümdən qorxmadığını, məsləki uğrunda hər cür əziyyətə dözməyə hazır olduğunu ifadə edən hərarətli əsərlər yaradır" (4, 5-6).

Nəsimi yaradıcılığını tərcümə edərkən poeziyadakı dərin hikmət və fəzilətlə yanaşı, şairimizdəki nəhayətsiz cəsarət və dözümə, qətiyyət və inadkarlığa, iradi mətinliyə və yenilməz məğrurluğa heyrətdən riqqətə gələn məşhur rus şairi Lev Ozerovun təəssüratları da öz qəribəliyi ilə eyni ilə qəribə doğurur:

« - mən Nəsimini dünya lirikasının Koperniki adlandırmaq istərdim… Böyük astronomun günəş haqqında dediklərini yüz il əvvəl Nəsimi insan haqqında söyləmişdir. Şairin əsərlərini tərcümə etməyə başlarkən onu yaxından görməli oldum və saçdığı ziyadan qamaşan gözlərimi əlimlə örtməli oldum» (7, 60).

Bu bir danılmaz həqiqətdir ki, Nəsimi hakim təbəqənin zülm və özbaşınalığına, ədalətsizliyinə qarşı cəsarətlə mübarizəyə qalxır, bivec adamların mənsəb başına keçdiyi, hünər sahiblərinin isə ehtiyac və səfalət pəncəsində çapalaması, elmə, təhsilə, istedada məhəl qoyulmayan feodal dünyasının haqsızlığına əzmlə sinə gərərək üsyan edir, tüğyan qoparır.

Şairin dözülməz müsibətlərlə, ağır məşəqqətlərlə dolu kəşməkeşli həyatı onun ölümünə fitva verilərkən belə vüqarını əyməmiş, hətta zindana salınarkən şəstlə addımlamış, qürurunu, qəddini əyməmiş, onun mərdanə davranışı, məntiqi mühakimələri, sərrast cavabları neçə əsrdir ki, nağıl və rəvayətlər, zərbməsələ və aforizmlərə çevrilmişdir.

Şair yaradıcılığında idmanın stolüstü növlərindən olan şahmat oyununa da tez-tez müraciət edir. O, “Müstəzad”larının birində bu oyunun əsas məğzini, onun məntiqi nəticəsi kimi şahın mat olmasını fəlsəfi anlamda bədii ifadə vasitəsi kimi oxucusuna belə çatdırır:

Cahan hüsnün qatında oldu şahmat,
Gəl, ey Mənsur, beyi-çərxi cahansan!…
Kim büsati-eşq içində oynadı şətrənci-zat,
Otuz iki istivadır məni içrə kainat.
Rast oyna sən dəxi həm evlərini yaxşı gör,
Ta müdami olmayasan eşq evində şahə mat (4, 502).

Böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin yaşadığı dövrdə şahmat və nərd oyunları ilə məşğul olanlar gözdən salınırdı. Hətta bu oyunlara maraq göstərən Teymurləng kimi türkün fövqəlbəşər cahangir oğlu da şahmatla məşğul olmaqdan qəti imtina etdi. Buna baxmyaraq, Nəsimi sadiq olduğu hürufilik ideyalarını gizli yaymaq yolunda çəkdiyi əzab-əziyyətli günlərdə də yeri düşdükdə bu oyunlarla məşğul olurdu.

Şairin hürufiliyi təbliğ etdiyi şeirlərində nərd oyununun da adı tez-tez xatırlanır və bu oyun haqqında maraqlı bilgilər verilir. Nəsimiyə görə, insanın üzü dindarların on səkkiz min aləmdən ibarət hesab etdiyi kainatın güzgüsüdür və bu hikməti ancaq hürufilər dərk edə bilər. Şair bu fikrini üç zərlə oynanılan seta nərdi ilə əlaqədar belə izah edir:

On səkkiz min aləmin sirrini bilən
Kə’bəteyni atcaq se-şeş gəlir.

Yaxud:

Oynaram rəqqas olub çəngü dəfü tənbur ilən,
Çünki məndə şeş cəhət var, dönməzəm çarparədən.
Çün Nəsimi on səkkiz min aləmin məqsududur,
Kim bu dövrü bilmədi sür ta çıxa dəvvarədən (4, 341-351).

Beləliklə, istər yaradıcılığında, istərsə də şəxsi həyatında fiziki inkişafı, fiziki təkmilləşməni, insanın şəxsiyyət kimi təşəkkülündə müstəsna əhəmiyyət kəsb etdiyini önə çəkən cəsarət və mərdlik mücəssəməsi olan Nəsiminin çoxşaxəli ədəbi irsində fiziki kamillik problemi olduqca mühüm yer tutur. Sənətkarlığı ilə şəxsiyyəti tam vəhdətdə olan, poeziyamızın qeyrət simvolu, əqidə və məslək rəmzi kimi qərarlaşmış şairin hünərə, dönməzliyə, əzmkarlığa səsləyən qəhrəmanlıq ruhunda yazıb-yaratdığı şeirlərin təbliğ və təşviqi bu günümüz üçün daha önəmlidir.

**ƏDƏBİYYAT**


1. Xətai divanı (Türkiyə çapı). Ankara, 1918, 168 s.
2. Kərəmov H.K. Odlar yurdunun səyyah və coğrafiyaşünasları. Bakı: Azərnəşr, 1984, 264 s.
3. Quluzadə M.Y. Böyük ideallar şairi. Bakı: Gənclik, 1973, 138 s.
4. Nəsimi İ. Seçilmiş əsərləri. Bakı: Azərşnəşr, 1973, 676 s.
5. Seyid İmaməddin Nəsimi. Divan. Bakı: 1926, 214 s.
6. Səfərli Ə.Q., Yusifli X.H. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı: Ozan, 1988, 632 s.
7. Orucəli H.Y. Həyati axtarışlar, bədii tapıntılar (Nəsiminin axtarışları). Bakı: Yazıçı, 1970, 191 s.


**ПРОБЛЕМЫ ФИЗИЧЕСКО-ВОЛЕВОГО СОВЕРШЕНСТВА В ЖИЗНИ И ТВОРЧЕСТВЕ И.НАСИМИ**


**МОБИЛЬ ГУНТЮРК АСЛАНЛЫ**


**РЕЗЮМЕ**


В статье на первый план выдвигаются в основном проблемы физическо-волевого совершенства человека в творчестве великого азербайджанского поэта и мыслителя Имадеддина Насими.

Автор статьи рассматривает галерею образов, воспетых поэтом и наделенных твердым убеждением, силой воли, стойкостью, физическим и духовным совершенством, а также делится размышлениями по поводу некоторых игр, требующих проявления интеллекта.



**Ключевые слова:** убеждение, воля, физическая зрелость, И.Насими, жизнь и творчество.


**PROBLEMS OF PHYSICAL AND STRONG-WILLED PERFECTION IN I.NASIMI'S LIFE AND CREATIVITY**


**MOBIL HUNTURK ASLANLI**


**SUMMARY**


The article brings up the foreground problems of physical and strong-willed perfection in the life and creativity of the great Azerbaijani poet and thinker Imadaddin Nasimi.

The author of the article considers a gallery of the poetic images sung by the poet and allocated with firm belief, willpower, firmness, physical and spiritual perfection, and also shares speculations about some games demanding display of intellectual abilities.



**Keywords**: belief, will, physical perfection, I.Nasimi, life and creativity.